**UDC:** 32.; 327.; 94.(479.24).; 908.(479,24).
**LBC:** 63.3(0=…); 63.3(5 e)64
**MJ №** 290
10.33864/2617-751X.2025.v8.i3.199-208

# AZERBAIJAN FACTOR IN THE SOUTH CAUCASUS

**Leila Mustafaeva***

**Abstract.** Azerbaijan plays a pivotal role in the South Caucasus, serving as a strategic bridge between Europe, Asia, and the Middle East. Its geopolitical significance is driven by vast energy resources, particularly oil and gas, and its key position along major transit routes. Azerbaijan is crucial for regional security and stability, especially in resolving the Nagorno-Karabakh conflict. Its foreign policy maintains a delicate balance between regional powers like Russia and Iran while strengthening ties with the West, particularly through NATO and EU partnerships. Azerbaijan actively participates in regional organizations such as the Commonwealth of Independent States (CIS) and the Organization of Islamic Cooperation (OIC), enhancing its diplomatic presence. Additionally, projects like the Southern Gas Corridor bolster Europe's energy security. Through economic initiatives and multilateral cooperation, Azerbaijan continues to shape the geopolitical landscape of the region, positioning itself as a key player in global energy and security affairs.

**Keywords:** Azerbaijan, South Caucasus, foreign policy, regional security, organization

* Lecturer,
Doctoral student of Baku State University; Baku, Azerbaijan
E-mail: leilamustafayevaaa@gmail.com
https://orcid.org/0009-0005-9947-3952

**To cite this article:** Mustafaeva, L. [2025]. AZERBAIJAN FACTOR IN THE SOUTH CAUCASUS. *"Metafizika" journal, 8*(3), pp.199-208.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i3.199-208

***Article history:***
*Received: 18.02.2025*
*Accepted: 02.06.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 32.; 327.; 94.(479.24).; 908. (479,24).
**ББК:** 63.3(0=…); 63.3(5 е)64
**MJ №** 290
10.33864/2617-751X.2025.v8.i3.199-208

# АЗЕРБАЙДЖАНСКИЙ ФАКТОР В ЮЖНОМ КАВКАЗЕ

**Лейла Мустафаева***

**Абстракт.** Азербайджан играет ключевую роль на Южном Кавказе, выступая стратегическим мостом между Европой, Азией и Ближним Востоком. Его геополитическое значение определяется богатыми энергетическими ресурсами, особенно нефтью и газом, а также важным расположением на основных транзитных маршрутах. Азербайджан имеет решающее значение для региональной безопасности и стабильности, особенно в урегулировании нагорно-карабахского конфликта. Внешняя политика страны сохраняет тонкий баланс между региональными державами, такими как Россия и Иран, одновременно укрепляя связи с Западом, особенно через партнерство с НАТО и ЕС. Азербайджан активно участвует в региональных организациях, таких как Содружество Независимых Государств (СНГ) и Организация исламского сотрудничества (ОИС), усиливая свое дипломатическое присутствие. Кроме того, проекты, такие как Южный газовый коридор, способствуют энергетической безопасности Европы. Благодаря экономическим инициативам и многостороннему сотрудничеству Азербайджан продолжает формировать геополитический ландшафт региона, занимая важное место в глобальной энергетике и безопасности.

**Ключевые слова:** Азербайджан, Южный Кавказ, Внешняя политика, Региональная безопасность, организация

---

* Преподавательница, докторант Бакинского Государственного Университета; Баку, Азербайджан
E-mail: leilamustafayevaaa@gmail.com
https://orcid.org/0009-0005-9947-3952

**Цитировать статью:** Мустафаева, Л. [2025]. АЗЕРБАЙДЖАНСКИЙ ФАКТОР В ЮЖНОМ КАВКАЗЕ. *Журнал «Metafizika», 8(3),* с.199-208.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i3.199-208

***История статьи:***
*Статья поступила в редакцию:* 18.02.2025
*Отправлена на доработку:* 25.03.2025
*Принята для печати:* 02.06.2025

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 32.; 327.; 94.(479.24).; 908. (479,24).
**KBT:** 63.3(0=…); 63.3(5 e)64
**MJ №** 290
10.33864/2617-751X.2025.v8.i3.199-208

# CƏNUBİ QAFQAZDA AZƏRBAYCAN FAKTORU

**Leyla Mustafayeva***

**Abstrakt.** Azərbaycan Cənubi Qafqazda mühüm rol oynayır və Avropa, Asiya və Yaxın Şərq arasında strateji körpü funksiyasını yerinə yetirir. Onun geosiyasi əhəmiyyəti geniş enerji resursları, xüsusən neft və qaz ilə, həmçinin mühüm tranzit marşrutları boyunca yerləşməsi ilə əlaqədardır. Azərbaycan regional təhlükəsizlik və sabitlik üçün həyati əhəmiyyət kəsb edir, xüsusən də Dağlıq Qarabağ münaqişəsinin həllində. Xarici siyasəti, Rusiya və İran kimi regional güclərlə incə bir tarazlıq saxlayaraq, eyni zamanda NATO və AB ilə tərəfdaşlıqlar vasitəsilə Qərblə əlaqələri gücləndirir. Azərbaycan, Müstəqil Dövlətlər Birliyi (MDB) və İslam Əməkdaşlıq Təşkilatı (İƏT) kimi regional təşkilatlarda fəal iştirak edir, diplomatik nüfuzunu artırır. Bundan əlavə, Cənubi Qaz Dəhlizi kimi layihələr Avropanın enerji təhlükəsizliyini möhkəmləndirir. İqtisadi təşəbbüslər və çoxtərəfli əməkdaşlıq vasitəsilə Azərbaycan regionun geosiyasi mənzərəsini formalaşdırmağa davam edir və qlobal enerji və təhlükəsizlik məsələlərində mühüm oyunçu kimi mövqeyini möhkəmləndirir.

**Açar sözlər:** Azərbaycan, Cənubi Qafqaz, xarici siyasət, regional təhlükəsizlik, təşkilat

---

* Bakı Dövlət Universitetinin müəllim və doktorantı; Bakı, Azərbaycan
E-mail: leilamustafayevaaa@gmail.com
https://orcid.org/0009-0005-9947-3952
**Məqaləyə istinad:** Mustafayeva, L. [2025] CƏNUBİ QAFQAZDA AZƏRBAYCAN FAKTORU. *“Metafizika” jurnalı, 8*(3), səh.199-208.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i3.199-208

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 18.02.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 25.03.2025*
*Çapa qəbul edilmişdir: 02.06.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Cənubi Qafqaz regionun dünyadakı geosiyasi əhəmiyyəti həm potensialına, həm də geostrateji vacibliyinə görə unikal kimi qiymətləndirilir. Region eyni zamanda enerji mərkəzi olmaqla, bərabər eyni anda Xəzərin enerji-karbohidrogen resurslarının Qərbə transfer olunmasında önəmli rol vardır [Həsənov, 2016. s.17].

Xəzər dənizi Avrasiya geosiyasi məkanının mərkəzində yerləşmişdir. Bu faktor regionun geostrateji önəmini bir addım daha önə çəkir beləki dəniz üzərində nəzarəti qazanmaqla, nəinki Cənubi Qafqaza bu minvalla Orta Asiyaya, Rusiyaya, İrana müəyyən qədər təsir göstərmək olar. Bu səbəbdən regionun Geosiyasətçilər tərəfindən Avrasiya qitəsinin "dayaq nöqtəsi" hesab etməsi ağlabatandır. Lakin digər tədqiqatçılar tərəfindən Cənubi Qafqazın vahid bir region kimi səciyyələndirilməsi birmənalı şəkildə qarşılanmır. Bəzi mütəxəssislərin fikrincə, subregion kimi götürüldükdə onun regional subsistemə çevrilməsi üçün kifayət qədər vaxt lazımdır və tələb olunan şərtlər müasir günümüzün reallığına uyğun deyil. Region dövlətlərinin sosial və iqtisadi uyğunluğunun və qarşılıqlı asılılığının olmaması Cənubi Qafqazdakı aktorların yalnız coğrafi baxımından götürüldükdə yaxınlığı amili vahid bir region olduğundan xəbər verir [Şahinoğlu, 2019. s.38].

## 2.Geosiyasi amillər

Geostrateji baxımdan bütünlüklə Xəzər hövzəsi regionunu təhlil etsək, ən əlverişli məkanda Cənubi Qafqaz regionu yerləşir. Cənubi Qafqazın bir region kimi beynəlxalq arenada önəmini artıran əsas faktorlar çoxdur. Beləki, əlverişli coğrafi mövqeyinə görə seçilən region Rusiya, İran, Türkiyə kimi dövlətləri əhatələndirməklə bərabər bir növ dəhliz rolunu oynayır. 1997-ci ilə məxsus ABŞ-ın Milli Təhlükəsizlik Strategiyasında Cənubi Qafqazın rolu Mərkəzi Asiya regionuna qədər stabilliyin təmin olunması, Xəzərin zəngin ehtiyyatlarının nəqli o cümlədən dünya bazarına çıxardılması kimi qeyd olunmuşdur. Karbohidrogen ehtiyyatlarının ixrac olunmasına dair beynəlxalq layihələr Azərbaycansız təsəvvür etmək qeyri-mümüköndür. Dövlətimiz tranzit ölkə olmaqla yanaşı eyni zamanda istehsalçı qismində çıxış edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də qeyd etdiyi kimi, Azərbaycan bir dövlət kimi regionda öz sözünü deməklə bərabər eyni zamanda təhlükəsizlik, sabitlik və inkişaf amilidir [İsmayılov, 2021. s.77]. Bu səbəbdən Azərbaycanın regionun təhlükəsizlik qarantı qismində çıxış etməsi şübhəsizdir. Amerika-Azərbaycan Palatasının sədri R. Maatske Azərbaycanı həm strateji həm də ticarət məkanı kimi təsvir etməsi ölkəmizin regional və beynəlxalq layihələrdə iştirak etmək potesialının reallığı əks elətdirdiynin sübütudur. Qeyd olunan faktorlar, ölkəmizin iqtisadi gücünü artırmaqla yanaşı

beynəlxalq arenada nüfuzununun da artırılmasına xidmət edir [Məhərrəmov, & Məmmədov, 2017. s.179].

1999-cu ilin noyabr ayında baş tutmuş İstanbul sammitində Heydər Əliyev Cənubi Qafqaz bölgəsində sülh və təhlükəsizliyin təmini üçün müqavilə imzalanmasının vacibliyini irəli sürdü. Bu təklif Türkiyə rəhbərliyi tərəfindən müsbət qarşılandı və müqavilənin layihəsi üzərində işlənərək region dövlətlərinin başçılarına göndərildi. Müqavilədə təhlükəsizlik məsələləri ilə yanaşı regiondakı konfliktlərin həlli, iqtisadi və demokratik islahatlarla bağlı məsələlər öz əksini tapmışdır [Sumancı, 2018. s.200]. Uzaqgörən diplomat, ümumilli lider Heydər Əliyev hələ o zaman bildirmişdir ki, Cənubbi Qafqazdakı münaqişələr XXI əsr üçün artıq öz həllini tapmalı və region dövlətləri arasında sülh müqaviləsi imzalanmalıdır. Bundan əlavə regionda reallaşdırılması vacib layihələr var idi ki, bunlar ancaq münaqişələrin həllindən sonra reallaşması mümkün olacaqdı. Həmin dövr üçün bu məsələlərin öz həllini tapması mümkünsüz görünürdü. Beləki Ermənistan işğal altındakı torpaqları işğaldan azad etməli, məcburi köçkünlər öz əzəli torpaqlarına dönməli idi. Belə bir məqamda Yerevanla əlaqə qurmaq rəsmi Bakı üçün üçün mümkünsüz idi.

**3.Cənubi Qafqazda yeni reallıqlar**

44 günlük II Qarabağ savaşından sonra Azərbaycan öz ərazi bütövlüyünü bərpa ederək, 2020-ci il 10 noyabr tarixində imzalanan üçtərəfli bəyanatla Azərbaycan ərazilərinin işğalına son qoyulub. Azərbaycan tərəfi regionda sülhün və təhlükəsizliyin qarantı kimi öz rolu təkcə bəyanatalarında deyil əməllərində göstərir. Belə ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev öz çıxışlarında dəfələrlə bildirib ki, Ermənistan öz əsassız iddialarında əl çəkərsə, qeyri-konstruktiv mövqeyini bir kənara qoyarsa, əməkdaşlıq platformalarının tərkib hissəsi kimi Ermənistanın iştirakına etiraz etməyəcəyik. Azərbaycan eyni zamanda öz sülhpərvəir mövqeyini bir daha nümayiş etdirərək Ermənistanla sülh sazişinin imzalanmasına razı olduğunu bildirib, bu addımı Rusiya və Türkiyə rəsmiləri də dəstəkləmişdi [İsmayılov, & Nəzərov, 2015. s.90].

Cənubi Qafqazda baş verən hadisələr yeni təhlükəsizlik mexanizminin yaranmasına səbəb olmaqla bərabər, yeni geosiyasi reallıqları özündə əks etdirdi. II Qarabağ savaşı tektonik dəyişiklər gətirməkdən əlavə oyunçular nisbətinə də öz təsirini göstərdi. Azərbaycan müharibə meydanındakı öz parlaq qələbəsini iqtisadi-siyasi sahədə, və informasiya savaşındakı uğurları ilə tamamladı. Ermənistan Azərbaycana məğlub olmaqla yanaşı, kaptulasiya aktı imzalamaqla, 30 illik işğal siyasətinin sonunun əsasını qoydu. Qarabağ münaqişəsinə son qoyulması Azərbaycanın Cənubi Qafqazdakı regional nüfuzunu artırmaqla bərabər regionda təhlükəsizliyin və stabilliyin təminatçısı

qismində çıxış etdi. İşğal altında olan torpaqların azad olunması, eyni zamanda Naxçıvan üzərindən Aralıq və Xəzər dənizi hövzələrin birləşdirən beynəlxalq layihələrin – həyat yolunun həyata keçirilnəsi yeni inkişaf perspektivlərini özündə ehtiva edir. Bu prizmadan məsələyə yanaşsaq, aktual geosiyasi məsələlər üzə çıxır [Rəhimov, 2020. s.100]. Belə ki, Azərbaycan konfrantasiya xəttini aradan qaldırıb və regionda əməkdaşlıq mühiti yaradıb.

Cənubi Qafqaz regionunda geosiyasi dinamikanı dəyişən səbəblər siyasi ekspertlər tərəfindən izlənilməkdədir. Aydın məsələdir ki, daxili və xarici siyasət bir-biriylə əlaqədə olan məsələlərdir. Regional güc amili olmaq üçün hər iki siyasətdə uğurlu olmaq lazımdır. Belə bir şəraitdə əsas məsələ geosiyasətə təsir edə biləcək fəal aktorun-dövlətin müəyyən olunmasıdır. Bu proseslər təkcə Cənubi Qafqazda deyil dünyanın digər regionlarında baş verir. Baş verən hadisələrin Cənubi Qafqaz regionunda daha qabarıq gözə çarpmasının səbəbi son 300 il ərzində regionun dünya siyasətində xüsusi rol oynamasıdır.

Dünyada baş verən proseslərə Cənubi Qafqaz ölkələrin inteqrasiya olmasının özünəməxsus xüsusiyyətləri vardır. Bu nöqteyi nəzərdən məsələyə yanaşsaq, region ölkələrinin mövcüd regional, beynəlxalq təşkilatlara daxil olmalarının əsas səbəblərini araşdıranda belə nəticəyə gəlmək olar:

1) SSRİ-nin süqutu ilə vahid geosiyasi məkanın parçalanması və yeni müstəqil hökumətlərin qurulması ilə beynəlxalq aləmə təşkilatlar vasitəsiylə inteqrasiya tendensiyaları yaranması,

2) Cənubi Qafqaz regionunda iqtisadi və siyasi təşkilatlara qoşulmaq zərurətinin olması,

3) İnteqrasiya proseslərində regional dövlətlərin məqsədləri və maraqlarının ön plana çıxması,

4) Maraqlı beynəlxalq oyunçuların maraqlarının nəzərə alınması xüsusilə xarici təşkilatlarla əməkdaşlıq məsələlərində, onların regiona doğru genişlənməsində böyük dövlətlərin nəzərə alınması.

MDB dövlətləri müstəqilliklərini əldə etdikdən sonra iqtisadiyyatında və dünyada öz maraqlarını, yerlərini müəyyən etməklə regional siyasətin geosiyasi məkanına çevrildilər. Müasir günümüzdə Cənubi Qafqaz dövlətləri bir çox nüfuzlu beynəlxalq təşkilatın (BMT, UNESCO, ATƏT və s.) bərabərhüquqlu üzvləridir. Misal olaraq, qeyd edə bilərik ki, Azərbaycan – 37, Gürcüstan – 33, beynəlxalq təşkilatın bərabərhüquqlu üzvüdür.

Bır sıra xarici institutlara üzv olmaq, Cənubi Qafqaz ölkələrini MDB-yə üzv olmaq məsələsindən konpensasiya etməklə yanaşı, xarici iqtisadi əlaqələrin inkişaf etməsinə yol açacaqdır [Hacızadə, 2017. s.7].

Müasir təhlükəsizliyə təhdid olan mütəşəkkil cinayətkarlıq, terrorçuluq, silahların, narkotik maddələrin qanunsuz dövriyyəsi kimi amillər region

dövlətlərinin diqqətini tələb edən problemlərdir. Daha bir təhlükəsizliyə təhdid olan problemlər sırasında regionda öz təsirini artırmaq üçün din amilindən istifadə edərək, vahid dini qurumunun-dövlətin yaranmasını dəstəkləyən xarici aktorların olmasıdır. Regional inteqrasiya sahəsində Cənubi Qafqaz dövlətlərinin ortaq maraqları olduğu görünür. İqtisadi münasibətlər, coğrafi mövqe, sosial-mədəni maraqlar regional və eyni zamanda subregional inteqrasiya, əməkdaşlıq üçün əsas yaradır. Buna görə də regionun hər bir aktorunun beynəlxalq səviyyədə, regional təşkilat, forum çərçivəsində öz məqsədlərini reallaşdırmaq imkanları var.

**4.Təhlükəsizlik faktoru**

Təhlükəsizlik fəaliyyəti daxili siyasətin xüsusi bir sektor olub, hər bir dövlətin milli təhlükəsizliyini həm daxili, həm də xarici təhdidlərən qorumağa yönəlib. Təhlükəsizlik sektoru müxtəlif sferaların məcmusudur və bu ümumilikdə müəyyən bir amillləri təmin edir - ölkənin müstəqilliyi, suverenliyi və milli təhlükəsizliyi. Keçid dövrünü yaşayan ölkələr üçün genişmiqyaslı islahatlar formatında təhlükəsizlik sektorlarında kompleks dəyişikliklər tələb oluna bilər.

Soyuq müharibənin bitməsi təkcə təhlükəsizlik anlayışında dəyişikliyə səbəb olmadı eyni zamanda dövlətlərin öz güc təsisatlarının da buna uyğunlaşdırılması zərurətini ortaya qoydu. Hətta təhlükəsizlik konsepsiyasının formalaşması ilə eyni bir vaxtda təhlükəsizlik sektorunda islahatlarla bağlı müzakirələrə start verildi. Beləliklə, 1997-ci ildə təhlükəsizlik məsələlərinin mövcud siyasi vəziyyətə uyğunlaşdırılması prosesi başladı. Dövlətin güc strukturları üzərində və təhlükəsizlik sisteminə nəzarətinin həyata keçirməsi, demokratik idarəetmənin təmini əsas vacib məqamlardan hesab olunurdu. Təhlükəsizlik məsələləri hər dövr üçün aktual problemlərdən hesab olunur. SSRİ-nin dağılmasından sonra Cənubi Qafqaz regionunda təhlükəsizlik sektorunda yuxarıda sadaladığım problemlər aktuallaşmağa başladı [Qasımov, 2016. s.11].

Yaranan problemlər region ölkələrin daxilində baş verməklə regional və beynəlxalq əməkdaşlığın gələcəyinə mane olurdu. Yeni yaranan siyasi epoxada Cənubi Qafqaz regionunun yerli aktorları öz inkişaflarında müxtəlif yol izlədilər. Güclü təhlükəsizlik sisteminin yaradılması ən vacib prioritet məsələlərdən idi. Sovet İttifaqının dağılmasından sonra iqtisadi tənəzzül və siyasi təlatüm şəraitində Cənubi Qafqaz regionunda yerləşən dövltlərdə - (Azərbaycan, Gürcüstan) islahatlar həyata keçirilməyə başlandı. Yeni müstəqilliyini əldə etmiş dövlətlər daxili siyasət və xarici siyasətlərini formalaşdırmalı idilər, bu minvalda möhkəm təhlükəsizlik sektorunun yaradılması öz aktuallığını qoruyub saxlayırdı. Həmin dövrlərdə Azərbaycan vəziyyət ürəkaçan deyildi, ölkə böhran içində idi, müxtəlif sahələrdə struktur

islahatlar aparmaq lazım gəlirdi. Qeyd etmək lazımdır ki, 2000-ci illin əvvəllərində tam miqyasda təhlükəsizlik sektorunda islahatlar həyata keçirildi. Qloballaşma prosesləri vüsət aldıqca, beynəlxalq münasibətlərin hazırkı vəziyyəti güclü dövlətlərin hökmranlığı ilə xarakterizə olunur. Qlobaşmanın mənfi və müsbət tərəfləri olduğu kimi özündə dünya ölkələrinin müxtəlif sahələrində inteqrasiyasını ehtiva edir. Bütün bu proseslər bugünkü beynəlxalq münasibətlərin inkişafı məqsədi ilə ölkələrin rifahı üçün onların bir-birində asılılıq vəziyyətini açıq şəkildə ortaya qoyur [Hüseynov, 2019. s.200].

Yuxarıda qloballaşmanın mənfi tərəflərinin olduğunu vurğulamışdım və onlardan ən başlıcası ölkələrin öz iqtisadi suverenliyinin itirilməsi, xarici təhdidlərə qarşı dözümsüzlüyün ortaya çıxmasıdır.Yaranmış situasiyadan ən çox yararlanan öz iradələrini tətbiq edən güclü dövlətlər olur. Bu şəraitdə dövlətlərin özlərini hər hansı təcavüzkar aktlardan qorumaq üçün (təkcə hərbi deyil, həm də iqtisadi, siyasi, sosial, və s.) öz təhlükəsizliyini gücləndirməyə daim böyük ehtiyacı var. Milli kimlik və siyasi suverenlik qorunmasa, dövlətlərin beynəlxalq arenada səlahiyyətlərini qismən və ya hətta tamamilə itirmək ehtimalı qaçınılmazdır. Milli təhlükəsizlik anlayışının həyati əhəmiyyətli olduğunu yuxarıdakı faktlardan əlavə nəzəri-konseptual əsaslarla izah etməyə çalışacam.

Ümumiyyətlə elmi ədəbiyyatda təhlükəsizlik anlayışının vahid tərifi yoxdur, tədqiqatçılar tərəfindən nəzəri konsepsiyaya müxtəlif yanaşmalar mövcuddur. Bu fenomenanı izah edən iki əsas yanaşmanı qeyd etmək olar.

1) Geniş yanaşma milli təhlükəsizliyin müxtəlif sahələri əhatə etdiyini güman edir. Beynəlxalq sferada suverenliyini qoruya bilmək üçün dövlətlərin bütün sahələrdə təhlükəsizlik səviyyəsi yüksək olması lazımdır.

2) Təhlükəsizlik anlayışına dar yanaşma isə sırf hərbi təhlükəsizliyin təmin olunmasını yəqin edir. Milli təhlükəsizlik konsepsiyasına fərqli nəzəri yanaşmalar mövcüddur. Realistlərə görə dövlətl beynəlxalq münasibətlər sistemində yeganə vacib aktordur və bu baxımdan milli təhlükəsizliyi dövlətlər arasında qarşılıqlı əlaqə baxımından təhlil edirlər. Realzmin əsas müddəası dövlətlərin hüquq və əxlaq normalarını bir kənara qoyub, öz maraqlarını təlqin etməsi normal haldır. Bu zəmində beynəlxalq sistemdə bir dövlət digərinin təhlükəsizliyini kölgə altına qoyur.

**5.Nəticə**

II Qarabağ savaşının beynəlxalq nəticələri təkcə Azərbaycanın regional və beynəlxalq nüfuznu artırmadı, eyni zamanda Azərbaycanın Cənubi Qafqaz regionunda sülhə və təhlükəsizliyə töhfə verdiyini sübüt etdi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi Azərbaycan Ermənistanla əməkdaşlığa razıdır ki, bu məsələ təkcə iki dövlət arasında münasibətlər müstəvisində deyil eyni zamanda Cənubi Qafqazda inteqrasiya

proseslərinin güclənməsi baxımından vacibdir. 29 aprel 2022-ci ildə baş tutan "*Cənubi Qafqaz: İnkişaf və Əməkdaşlıq*" adlı beynəlxalq konfransda cənab İlham Əliyev bildirmişdi ki, Ermənistan tərəfi dəfələrlə müxtəlif formatlarda danışıqlara dəvət olunub lakin Ermənistan bir daha qeyri-konstruktiv mövqe nümayiş etdirərək əməkdaşlıqdan imtina edib.

## ƏDƏBİYYAT

1. Həsənov, Ə. (2016). *Cənubi Qafqazın siyasi iqtisadiyyatına Bakı perspektivindən*. Bakı Universiteti Nəşriyyatı, 300 s.
2. Şahinoğlu, E. (2019). *Cənubi Qafqazda təhlükəsizlik: Azərbaycan və regional problemlər*. Təhsil Nəşriyyatı, 280 s.
3. İsmayılov, F. (2021). *Azərbaycanın Dağlıq Qarabağ siyasəti və Cənubi Qafqazın gələcəyi*. Şərq-Qərb Nəşriyyatı, 360 s.
4. Məhərrəmov, F., & Məmmədov, T. (2017). *Azərbaycanın xarici siyasəti və Cənubi Qafqazın geosiyasi konteksti*. Elm və Təhsil Nəşriyyatı, 320 s.
5. Sumancı, S. (2018). *Cənubi Qafqazın geosiyasəti: Azərbaycan perspektivi*. Qanun Nəşriyyatı, 240 s.
6. İsmayılov, Q., & Nəzərov, N. (2015). *Azərbaycanın regional strateji yönləri*. İqtisadiyyat Nəşriyyatı, 350 s.
7. Rəhimov, R. (2020). *Azərbaycanın Cənubi Qafqazda geosiyasi strateqiyası*. İrs Nəşriyyatı, 330 s.
8. Hacızadə, M. (2017). *Cənubi Qafqazda enerji məsələləri: Azərbaycanın enerji diplomatiyası*. Mütərcim Nəşriyyatı, 290 s.
9. Hüseynov, H. (2019). *Cənubi Qafqazda Azərbaycan-Türkiyə strateji əməkdaşlığı*. Azərbaycan Dövlət Nəşriyyatı, 280 s.
10. Qasımov, İ. (2016). *Cənubi Qafqazın tarixi və müasirliyi: Azərbaycan, Ermənistan, Gürcüstan*. Elm Nəşriyyatı, 340 s.

## REFERENCES

1. Hasanov, A. (2016). *The political economy of the South Caucasus from the Baku perspective*. Baku University Publishing, 300 p. (in Azerbaijani)
2. Shahinoghlu, E. (2019). *Security in the South Caucasus: Azerbaijan and regional problems*. Tahsil Publishing, 280 p. (in Azerbaijani)
3. Ismayilov, F. (2021). *Azerbaijan's Nagorno-Karabakh policy and the future of the South Caucasus*. East-West Publishing, 360 p. (in Azerbaijani)
4. Maharramov, F., & Mammadov, T. (2017). *Azerbaijan's foreign policy and the geopolitical context of the South Caucasus*. Science and Education Publishing, 320 p. (in Azerbaijani)
5. Sumanci, S. (2018). *The geopolitics of the South Caucasus: The Azerbaijani perspective*. Qanun Publishing, 240 p. (in Azerbaijani)

**6.** Ismayilov, Q., & Nazarov, N. (2015). *Azerbaijan's regional strategic directions*. Iqtisadiyyat Publishing, 350 p. (in Azerbaijani)

**7.** Rahimov, R. (2020). *Azerbaijan's geopolitical strategy in the South Caucasus*. Irs Publishing, 330 p. (in Azerbaijani)

**8.** Hacizade, M. (2017). *Energy issues in the South Caucasus: Azerbaijan's energy diplomacy*. Mutarcim Publishing, 290 p. (in Azerbaijani)

**9.** Huseynov, H. (2019). *Strategic cooperation between Azerbaijan and Turkey in the South Caucasus*. Azerbaijan State Publishing, 280 p. (in Azerbaijani)

**10.** Gasimov, I. (2016). *History and modernity of the South Caucasus: Azerbaijan, Armenia, Georgia*. Elm Publishing, 340 p. (in Azerbaijani)